**AZERBAİJAN**

İstifadəsi üzrə təlimat

**RENALKA** şərbət
RENALKA

Bioloji aktiv əlavə

**Tərkibi**
Hər 5 ml şərbətin tərkibində olan aktiv komponentlər:
*Ekstraktlar:* dəmir tikanı (tribulus terrestris) 50 mq, böyük krateva (cretaeva magna) 50 mq, hind hemidesmusu (hemidesmus indicus) 50 mq, fındıq otu (cyperus rotundus) 50 mq, vetiveriya (vetiveria zizanioides) 50 mq, qulançar (asparagus racemosus) 50 mq, trikatu (trikatu) 16.50 mq, kardamon (elettaria cardamomum) 16.50 mq.
*Tozlar:* kşara parpati (kshara parpati) 75 mq.

**Təsir mexanizmi**
**Renalka** - sidik yollarının xəstəliklərində öz effektivliyini sübut edən düzgün balanslaşdırılmış bitki mənşəli preparatdır. **Renalka** diurezi yüngülləşdirir, antiseptik təsir göstərir, sidiyin pH göstəricisini normallaşdırır və sidik yollarının selikli qişasının iltihabını aradan qaldırır. Beləliklə, **Renalka** ağrılı sidik ifrazı, sidik yollarının residiv infeksiyaları və dizuriya zamanı çox faydalıdır.

**İstifadəsinə göstərişlər**
- dizuriya
- sistit

**Əks göstərişlər**
Preparatın komponentlərinə qarşı hiperhəssaslıq.

**Xüsusi göstərişlər**
Yoxdur.

**İstifadə qaydası və dozası**
Daxilə.
Böyüklər: Başlanğıcda 2 çay qaşığından gündə 2-3 dəfə su ilə qəbul etmək, gələcəkdə 1-2 çay qaşığından gündə 2 dəfə olmaqla davam etmək olar.
Uşaqlar: Başlanğıc doza 1 çay qaşığından gündə 2-3 dəfə, gələcəkdə 1 çay qaşığından gündə 2 dəfə olmaqla davam etmək olar.
İstifadədən qabaq flakonu yaxşı çalxalamaq lazımdır!

**Buraxılış forması**
100 ml-lik "nəzarət qapaqlı" flakonlarda buraxılır. Bir flakon içlik vərəqə ilə birgə karton qutuya yerləşdirilir.

**Saxlanma şəraiti**
Quru, işıqdan qorunan yerdə 25ºC-dən yuxarı olmayan temperaturda saxlamaq lazımdır.
Uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır. Dondurmaq olmaz.

**Yararlıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**İstehsalçı**
**The Himalaya Drug Company**
Makali, Banqalor - 562 162, Hindistan
www.himalayawellness.com
® **-** qeydiyyata alınmış ticarət nişanı

Azərbaycanda rəsmi distribyutor
**«TETRADA» MMC** - dir.
AZ1102, 20Yanvar küçəsi, 14; Bakı, Azərbaycan
Tel.:(+994 12) 431-59-24, 431-05-41
Faks: (+994 12) 430-80-51
E-mail: info@tetrada-az.com
www.tetrada-az.com